

> Bu gün Milli Kitabxana ölkənin baş kitabxanası kimi respublikanın əsl mədəniyyət mərkəzinə, mədəni-kütləvi tədbirlərin, yeni kitabların təqdimat mərasimlərinin, kitab bayramlarının, müəlliflərlə, naşirlərlə oxucuların görüşlərinin keçirildiyi bir məkana çevrilmişdir.

# Kitabxanada keçirilən kütləvi tədbirlər və onun cəmiyyət üçün əhəmiyyəti

**Azərbaycan Milli Kitabxanası - 90**

Kitabxanada bu kimi tədbirlərin təşkilini 1942-ci ildən fəaliyyətə başlayan mədəni-kütləvi işlər şöbəsi yerinə yetirir. Şöbə yazıçı və şairlərin, elm və mədəniyyət xadimlərinin yubileylərinə həsr olunmuş kitab sərgiləri, Azərbaycanın görkəmli elm, incəsənət, mədəniyyət xadimlərinin respublika səviyyəsində yubileylərinə dair müxtəlif tədbirlər, o cümlədən mühazirələr, söhbətlər, biblioqrafik icmallar, oxucu konfransları, oxucularla görüşlər keçirir. Milli Kitabxanada gerçəkləşdirilən tədbirlər haqqında kütləvi informasiya vasitələrinə məlumatların ötürülməsini təmin edir.



Milli Kitabxananın tarixinə nəzər salsaq görərik ki, ötən illərə nisbətən kitabxana tərəfindən reallaşdırılan layihələrin, sərgilərin məzmun və forması xeyli dərəcədə dəyişmişdir. Belə ki, kütləvi tədbirlər keçirilərkən kitabxana tərəfindən hazırlanmış elektron məlumat bazaları, slaydlar, videoçarxlar, sənədli filmlər nümayiş etdirilir. Burada hər il 100-ə yaxın müxtəlif kütləvi tədbirlər keçirilir.




Kitabxana tərəfindən bir çox yerlərdə, ayrı-ayrı regionlarda da tez-tez səyyar kitab sərgiləri təşkil olunur. Burada Azərbaycan teatrının yaranması münasibəti ilə Sumqayıt şəhərində 15 sentyabr 2010-cu il tarixində "Azərbaycan teatrı - 138", 11 may 2012-ci il tarixində isə "Mirzə Ələkbər Sabir - 150" adlı kitab sərgiləri, 18 sentyabr 2010-cu il tarixində Üzeyir Hacıbəylinin anadan olması münasibətilə Heydər Əliyev Sarayında "Üzeyir Hacıbəyli - 125" adlı sərgi, 2010-cu il noyabrın 8-10-da Akademik Milli Dram Teatrında "Bakı beynəlxalq teatr konfransı" münasibətilə geniş kitab sərgisi, 20 aprel 2011-ci il tarixində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında şair Nəriman Həsənzadənin 80 illik yubileyinə həsr edilmiş geniş kitab sərgisi, 5 iyun 2012-ci il tarixində Əhməd Cavadın anadan olmasının 120 illiyinə həsr edilmiş tədbirdə "Əhməd Cavad - 120", "M.S.Ordubadi - 140", 14-19 aprel 2013-cü il tarixində M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bəstəkar, musiqiçi-alim Qara Qarayevin adına V Beynəlxalq Müasir Musiqi festivalında "Qara Qarayev - 95" 28-30 sentyabr 2011-ci il tarixlərində Əl Oyunları İdman Kompleksində "II Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası" 2011-ci il 24 noyabr tarixində Akademik Milli Dram Teatrında Xalq yazıçısı Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş tədbirdə "Mirzə İbrahimov - 100", 5-6 noyabr 2012-ci il tarixlərində "Azərbaycan teatrı dünən və bu gün" adlı sərgi, 27 noyabr 2012 ci il "M.F.Axundzadə - 200", 2 aprel 2013-cü il Xalq artisti, rejissor Həsənağa Turabovun anadan olmasının 75 illiyi münasibətilə "Həsənağa Turabov - 75", 13 may 2013-cü il tarixində Xalq yazıçısı, ictimai-siyasi xadim Elçinin anadan olmasının 70 illiyi münasibətilə keçirilən tədbirdə "Elçinin söz dünyası" sərgisi və Milli Kitabxana tərəfindən tərtib edilmiş "Elçin" biblioqrafiyasının təqdimatı, 14 sentyabr 2012-ci il tarixində Muğam Mərkəzində X.Natəvanın anadan olmasının 180 illiyinə həsr edilmiş tədbirdə Milli Kitabxana tərəfindən "Xurşidbanu Natəvan - 180" adlı sərgi nümayiş etdirilmişdir.

Azərbaycanın milli bayramı olan Novruz bayramı münasibəti ilə Dənizkənarı Milli Parkda hər il "Novruz - Kitab yaddaşımızda" adlı kitab sərgisi təşkil edilir. Sərgidə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə nəşr edilən kitablar - Azərbaycan xalq ədəbiyyatı, Azərbaycan ədəbiyyatı klassikləri, müasir Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı klassikləri, dünya uşaq ədəbiyyatı, lüğət və ensiklopediyalar, Nobel mükafatı laureatları, ədəbiyyat antologiyaları, Azərbaycan dili və tarixi, müasir dünya ədəbiyyatı adlı yarımbaşlıqlar altında toplanılır. Eyni zamanda Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin nəşrləri daxil olmaqla 500-dən çox kitab təbliğ edilir.

20 dekabr 2012-ci il tarixində Bakıdakı "Park İNN" mehmanxanasında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan Kitabxanaçılarının Ümumrespublika müşavirəsi" keçirilmişdir. Müşavirədə Mədəniyyət və Turizm Nazirliyinin 2010-2012-ci



ildə nəşr etdirdiyi kitablardan və Milli Kitabxananın nəşrlərindən ibarət sərgi təşkil edilmişdir.

Son illər Milli Kitabxana Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xarici ölkələrdə keçirilən beynəlxalq kitab sərgi-yarmarkalarında da fəal iştirak etməyə başlamışdır.

Belə ki, təkcə 2012-ci il ərzində Milli Kitabxana Frankfurt, Budapeşt, London, Moskva, Kiyev, İstanbul, Kişinyov, Minsk şəhərlərində gerçəkləşdirilən beynəlxalq kitab sərgilərində öz ekspozisiyası ilə uğurla təmsil olunmuşdur.

Milli Kitabxana tərəfindən yeni nəşr edilmiş kitabların təqdimatına son illər xüsusi diqqət yetirilir. Bunların sırasında həm milli nəşrlər, həm beynəlxalq nəşrlər, həm də Milli Kitabxananın nəşrləri üstünlük təşkil edir.

17 dekabr 2010-cu il tarixində "Türksoy kitabxanası" seriyasından çap olunmuş Türkmənistanın tanınmış şairi Məxdumqulu Fəraqinin "Seçilmiş əsərləri", türkmən şairi və mütəfəkkiri N.Əndəlibin "Şeirlər, poemalar, dastanlar", Milli Kitabxananın əməkdaşları tərəfindən tərtib edilmiş "Şəhidlər" biblioqrafiyası (19 yanvar, 2010), İTAR-TASS agentliyinin baş direktorunun müavini Mixail Qusmanın "Формула Власти" (25 yanvar, 2010), "Xocalı soyqırımı rabitəçilərin yaddaşında" (25 fevral, 2010), "Teyyub Qurban" biblioqrafiya (12 mart, 2010), "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri təcrübi jurnalı (21 may, 2010), R.Mehdiyevin "XXI əsrin humanitar çağdaşı" (10 sentyabr, 2011), "M.Ə.Sabir" biblioqrafiya (29 may, 2012), M.Çəmənli "Ölüm mələyi" (8 noyabr, 2012), "M.F.Axundzadə - 200" biblioqrafiya, "Ustad aşıqlarımız" seriyasından nəşr olunan "Xan Kamandar" (17 dekabr, 2012), "Ana! dedim, qarşımda bir gözəl səhnə açıldı" (15 mart, 2013), "Görkəmli adamların həyatı" silsiləsindən nəşr edilən "Zərifə Əliyeva" (22 aprel, 2013), "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin köməkçi göstəricisinin 3-cü cildi (8 may, 2013), "Elçin" biblioqrafiya (13.V.2013), "Nizami Gəncəvi" biblioqrafiya kitabının "Mədəniyyətimiz və mədəni incilərimizin hamisi"(ərəb və ingilis dillərində) və. s. ən sanballı, qiymətli kitabların təqdimatları keçirilmişdir.

Şöbə tərəfindən hər il ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti, Azərbaycanın inkişafı və çiçəklənməsi, dünyaya tanınması barədə məlumatları özündə əks etdirən kitab, qəzet və jurnal materiallarından ibarət geniş tərtibatda sərgilər, foto-sərgilər, elektron məlumat bazasının təqdimatı, anım günləri təşkil edilir.

Hər il 20 yanvar hadisələri ilə bağlı "20 Yanvar - qanlı və şanlı tariximiz". Xocalı soyqırımı ilə əlaqədar "Xocalı soyqırımı", "31 mart - Azərbaycanlıların soyqırımı günüdür", faşizm üzərində qələbə günü ilə bağlı hər il may ayının 9-da "9 May - Qələbə günü", 1918-ci il 15 sentyabr Bakı şəhərinin Qafqaz İslam Ordusu və AXC-nin birləşmiş qüvvələri tərəfindən bolşevik-daşnak qruplaşmasının işğalından azad edilməsi münasibətilə "Qafqaz İslam Ordusunun Azərbaycanda döyüşləri", "15 sentyabr - Bilik günü", "Azərbaycan teatrı - 138", "Üzeyir - musiqi günü", "Nizami hikməti, Şəhriyar sözü", "8 mart - Beynəlxalq qadınlar bayramı", "Novruz bayramı", "Milli mətbuat və jurnalistika günü", "Qızıl kəlmə laureatları", "İnsan hüquqları - bərabərlik, demokratiya, azadlıq", Şuşa şəhərinin işğalı, Dağlıq Qarabağ və ətraf rayonların işğalı ilə bağlı, 1995-ci il 12 noyabrda Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi münasibətilə "Konstitusiya günü", "17 noyabr - Milli Dirçəliş günü", "İlham Əliyev - 50", 1918-ci il 28 mayda AXC-nin yaranması ilə bağlı "28 may - Respublika günü", "1993-cü il 15 iyunda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Məclisinin sədri seçilməsi münasibətilə "15 iyun - Milli Qurtuluş günü", 1918-ci il 26 iyunda Milli Ordunun yaranması günü münasibətilə "26 iyun - Silahlı Qüvvələr günü", "9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı günü", "31 dekabr - Dünya azərbaycanlılarının həmrəylik günü", "Nəsir İmanquliyev - 100" kimi tarixi hadisələrlə bağlı sərgilər hər il hazırlanır və keçirilir ki, bu da kitabxanamızın oxucuları tərəfindən maraqla qarşılanır.

Milli Kitabxanada reallaşdırılan kütləvi tədbirlərin bir forması da elmi konfranslardır. 13 dekabr 2011 tarixində Tatar xalqının böyük yazıçısı Abdulla Tuqayın 125 illiyinə həsr olunmuş konfrans, 14 dekabr 2011-ci il tarixində əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, akademik, professor Abuzər Xələfovun anadan olmasının 80 illik yubileyi ilə əlaqədar "Abuzər Xələfov - 80" başlığı altında elmi konfrans, 27 sentyabr 2012-ci il tarixində Milli Kitabxananın konfrans zalında keçirilmiş "Nizami irsinin təbliği" mövzusunda beynəlxalq elmi konfrans, 6 dekabr 2012-ci il tarixində XV əsr görkəmli Azərbaycan filosofu və sufi alimi Seyid Yəhya Bakuviyə həsr olunmuş konfrans, 14 dekabr 2012-ci il Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsinin 50 illik yubileyinə həsr olunmuş "Kitabxanaçılıq-İnformasiya fakültəsi - 50" başlığı altında konfranslar təşkil edilmiş və ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

Kitabxananın təşkil etdiyi ən böyük yubiley tədbirlərindən biri 2008-ci ildə Milli Kitabxananın yaranmasının 85 illik yubileyi ilə əlaqədar olaraq keçirilmişdir. Bu tədbir milli mədəniyyətimizin və mənəvi dəyərlərimizin mühafizəsinə xüsusi qayğı göstərən Prezident İlham Əliyev cənablarının hədsiz diqqəti sayəsində xüsusi təmtəraqla qeyd edilmişdir. Yubiley tədbirində Milli Kitabxanada 8 adda: "Heydər Əliyev Milli Kitabxanamızda", "Tariximizdən səhifələr", "Azərbaycan xarici mətbuatda", "Musiqi tariximizin qızıl fondundan", "85 il xalqın xidmətində", "Kitabxanamızın inciləri", "Azərbaycanın kitab abidələri", "Əməkdaşlarımızın yubiley töhfələri" sərgilərinin açılışı olmuşdur. Kitabxananın işçilərinin əl işlərindən ibarət olan "Əməkdaşlarımızın yubiley töhfələri" sərgisinin eksponatları qonaqlar tərəfindən xüsusi maraq və diqqətlə qarşılanmışdır.




Daha bir yubiley tədbiri 14 dekabr, 2012-ci il tarixində BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin 50 illik yubileyinə həsr edilmiş "İnformasiyalı cəmiyyət üçün yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına doğru" mövzusunda elmi konfrans və fakültə əməkdaşlarının əsərləri, eləcə də fakültə haqqında yazılmış əsərlərdən ibarət kitab sərgisi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan folkloru" mövzusunda elmi-praktik konfrans və kitab sərgisi, "Heydər Əliyev və Azərbaycanda dərslik siyasəti" mövzusunda tədbir və kitab sərgisi, 10 aprel 2013-cü il Azərbaycanın görkəmli alimi, oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 90 illik yubileyi ilə əlaqədar tədbir və kitab sərgisi, 6 dekabr 2012-ci il XV əsr Azərbaycan filosofu və sufi alimi Seyid Yəhya Bakuviyə həsr edilmiş tədbir və kitab sərgisi təşkil edilmişdir ki, bu sərgilər tədbir iştirakçıları tərəfindən diqqət və maraqla qarşılanmışdır.

**Yekun olaraq onu deyə bilərik ki, bütün bu tədbirlərin keçirilməsi kitabxanada ədəbiyyat təbliği ilə bərabər, həm də oxucuların intellektual səviyyələrinin yüksəlməsində və mənəvi tərbiyəsində mühüm təsiredici əhəmiyyətə malikdir.**


● **Natella SALAYEVA,**
***Milli Kitabxananın mədəni-kütləvi işlər şöbəsinin müdiri***